# İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi QAYDASI

Azərbaycan Respublikası Prezidentinin

2016-cı il 20 aprel tarixli Fərmanı

ilə təsdiq edilmişdir

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.26-cı maddəsinə və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.17-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin (bundan sonra – təsdiqedici sənəd)verilməsi qaydasını müəyyən edir.

1.2. Təsdiqedici sənəd Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"na uyğun olaraq investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara (bundan sonra – sahibkar) verilir.

1.3. Təsdiqedici sənədin forması bu Qaydaya əlavə olunur.

1.4. Təsdiqedici sənəd sahibkara Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164.1.26-cı maddəsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.17-ci maddəsində nəzərdə tutulan güzəştlərdən istifadə hüququ verir.

1.5. Təsdiqedici sənədin verilməsi üzrə inzibati icraat, bu Qaydanın tələbləri nəzərə alınmaqla, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparılır.

## 2. Təsdiqedici sənədin verilməsi

2.1. Təsdiqedici sənədi almaq üçün sahibkar "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə (bundan sonra – Nazirlik) ərizə ilə müraciət edir.

2.2. Ərizə ilə birlikdə, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2-ci maddəsində göstərilənlərlə yanaşı, aşağıdakılar da təqdim edilir:

2.2.1. idxalı nəzərdə tutulan texnikanın, texnoloji avadanlıqların və qurğuların siyahısı (siyahıda idxalı nəzərdə tutulan texnikanın, texnoloji avadanlıqların və qurğuların ABŞ dolları ilə dəyəri, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə kodu, adı, XİFMN-də göstərilən ölçü vahidində miqdarı göstərilməlidir);

2.2.2. idxalı nəzərdə tutulan texnikanın, texnoloji avadanlıqların və qurğuların alınması ilə bağlı müqavilənin surəti;

2.2.3. investisiya təşviqi sənədinin surəti.

2.3. Nazirlik təqdim olunmuş ərizəyə (ona əlavə edilmiş sənədlərlə birlikdə), onun qeydiyyata alındığı tarixdən ən geci 7 iş günü müddətində baxır və bu Qaydanın 2.6-cı bəndinin tələblərinə uyğun olduqda, təsdiqedici sənədi tərtib edərək sahibkara verir. Nazirlik verdiyi təsdiqedici sənəd barədə məlumatı 3 iş günü müddətində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə verir.

2.4. Daxil olmuş ərizədə və ona əlavə olunmuş sənədlərdə göstərilən məlumatlar bu Qaydanın 2.6-cı bəndində əks olunan tələblərə cavab vermədikdə, habelə onlarda aradan qaldırılması mümkün olmayan çatışmazlıq aşkar edildikdə, Nazirlik təsdiqedici sənədin verilməsindən imtina haqqında inzibati akt qəbul edir və həmin aktı qəbul olunduğu tarixdən 2 iş günü müddətində sahibkara təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir.

2.5. Təsdiqedici sənədin verilməsi barədə ərizədə (ona əlavə edilmiş sənədlərdə) aşkar edilmiş çatışmazlıq "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aradan qaldırılır. Çatışmazlıq aradan qaldırıldıqdan sonra sahibkar yenidən təsdiqedici sənədin verilməsi barədə ərizə ilə Nazirliyə müraciət edə bilər.

2.6. Təsdiqedici sənədin verilməsi barədə ərizəyə baxılarkən idxalı nəzərdə tutulan texnikanın, texnoloji avadanlıqların və qurğuların bilavasitə istehsalın, işin və xidmətin təşkili ilə bağlı olması və investisiya təşviqi sənədini almaq üçün təqdim edilən investisiya layihəsinə (biznes plana) uyğunluğu araşdırılır.

## 3. Təsdiqedici sənədin ləğvi

3.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsində göstərilən hallarla yanaşı, təsdiqedici sənəd aşağıdakı hallarda da ləğv olunur:

3.1.1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"nın 9-cu hissəsinə uyğun olaraq investisiya təşviqi sənədi ləğv edildikdə;

3.1.2. təsdiqedici sənəd əsasında idxal olunmuş texnikanın, texnoloji avadanlıqların və qurğuların sahibkar tərəfindən təyinatına uyğun olmayan məqsədlər üçün istifadə edilməsi, investisiya layihəsinin həyata keçiriləcəyi ərazidən kənarlaşdırılması və ya üçüncü şəxsə verilməsi (müəssisənin və ya təsərrüfat obyektinin verilməsi halları istisna olmaqla) haqqında Nazirlik əsaslı məlumat əldə etdikdə və bu pozuntuların aradan qaldırılması mümkün olmadıqda.

3.2. Təsdiqedici sənəd ləğv olunduqda, sahibkar qanunla nəzərdə tutulan güzəştlərdən istifadə hüququnu itirir və o, idxal etdiyi texnika, texnoloji avadanlıqlar və qurğular üçün Azərbaycan Respublikasının Vergi Məcəlləsinin və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddələrinə uyğun olaraq əlavə dəyər vergisini və gömrük rüsumunu ödəməlidir.

3.3. Nazirlik ləğv etdiyi təsdiqedici sənəd barədə məlumatı 3 iş günü müddətində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə verir.